## Rusiyanın iqtisadi rıçaqlara əl atır?

Və yaxud bu ölkənin dumasının bank köçürmələrinə qadağalarla bağlı son bəyanatının iqtisadi tərəfləri

Rusiya ilə Gürcüstan arasındakı gərginlik siyasi səhnədən iqtisadi müstəviyə keçməkdədir. Rəsmi Moskva Rusiyada fəaliyyət göstərən gürcülərə məxsus obyektlərə qarşı “səlib yürüşünə” keçməklə yanaşı başqa MDB sakinlərinə də “dişlərini göstərməkdədir”. Prezident Putinin Rusiyaya immiqrasiyanı çətinləşdirməyin vacibliyi ilə bağlı bəyanatından sonra bu ölkənin duması bank köçürmələrinə maneələrin tətbiqinə hesablanan qanun layihəsinin müzakirəyə çıxaracağı haqda xəbərlər yayılmaqdadır. Rusiya mənbələri bu ölkənin digər MDB dövlətləri ilə olan bank köçürmələrinin çətinləşdiriləcəyi bağlı bəyanat yayıb. Dumanın özü isə daha uzağa gedərək bank köçürmələrində məhdudiyyətlərinin tətbiq ediləcəyini gündəmə gətirdi. Dumanın bəyanatının sadə dillə izahatının özü də çox sadədir: Rusiya MDB ölkələrinə ünvanlanan “pul kranını” bağlamaq niyyətindədir. Söhbət MDB ölkələrinin iqtisadi, sosial və əslində eləcədə siyasi vəziyyətinə təsir edəcək “kranın” bağlanmasından gedir. Problem heç də Moskvadan MDB ölkələrinə “pul axının” qarşısına bənd qoyulmasında deyil, həmçinin Rusiyanın bu ölkələrə varlığını xatırlatmaq istəyindədir.

Rəsmi Moskvanın bu bəyanatlarının arxasında nəyin və ya nələrin dayandığını görmək elə də çətin deyil: Şimal qonşumuz Gürcüstanın “sələflərinin” yaranmasından ehtiyatlanaraq başqa MDB ölkələrinə “dişini göstərməyə” çalışır. Aydındır ki, Azərbaycan da daxil olmaqla MDB-nin əksər ölkələrində sosial problemlərin həllində Rusiyadan gələn vəsaitlərin rolu kifayət qədər böyükdür və Moskvanın həmin pulların qabağına “əl qoyması” heç də ürək açan hesab edilə bilər. Rusiyada dərc edilən “Ekspert” jurnalının hesablamalarına görə, Rusiyadan yalnız Azərbaycana ildə 2 milyard dollar həcmində pul gəlir və aydınlıq üçün qeyd edək ki, bu ölkənin dövlət büdcəsinin 60 faizindən bərabərdir. Rusiyadan MDB ölkələrinə edilən transferlərin həcmi isə 15 milyard dollardan artıqdır. Bu siyahıya isə Ukrayna ilə Azərbaycan liderlik edir. “Ekspert”in araşdırmalarına görə, 2005-ci ildə belə transferlərin həcmi 30 faizədək artmışdır. Deməli, söhbət kifayət qədər böyük vəsaitdən gedir. Hələlik, diqqətlər Tifilisə yönəldiyindən başqa MDB ölkələri ilə Rusiya arasındakı siyasi və iqtisadi münasibətlər müzakirə mövzusu deyildir. “Qardaş respublikaların” paytaxtlarında daha çox seyrici mövqe müşahidə edilməkdədir – “kiçik qardaşlar” Qərblə Rusiya arasında yerləşən meydançada futbol oynamaq niyyətində deyillər.

Məsələnin əsas tərəfi isə Rusiyanın bu addımı atıb-atmayacağı ilə bağlıdır: bank köçürmələrində liberal qaydalardan proteksanist üsullara keçmək qərarını vermək rəsmi Moskva üçün nə dərəcədə məqbuldur və ya mümkündür? Rusiya son illər istər maliyyə, istərsə də xarici ticarət sahəsində liberal islahatlar aparan dövlət kimi tanınır. Hətta nağd pulların hərəkətinə qoyulan qadağaları da Rusiya aradan qaldırmağa çalışır. Əgər 2000-ci ilədək Rusiyadan xaricə nağd şəkildə dönərli valyuta aparmaq qadağan idisə, sonradan Rusiya hökuməti 500 ABŞ dolları aparmağa icazə verdi. 1 ildən sonra bəyannamə təqdim edilmədən və heç bir vergi və ya rüsum ödənilmədən xaricə aparılan valyutanın həcmi 3000 dollaradək artırıldı. 2006-cı ildəsə Rusiya hökuməti həmin rəqəmin 10 000 dollaradək artırmaq qərarına gəldi. Müqayisə üçün qeyd edək ki, Azərbaycandan xaricə rüsumsuz yalnız 1000 dollaradək nağd vəsait aparmağa icazə var. 10 000 dollaradək olan vəsaitlərdə isə 1000 dollardan artıq vəsaitin 1 faizi həcmində rüsum ödəmək lazımdır. Əgər vəsait sözügedən məbləğdən yüksəkdirsə o zaman xüsusi sənədlər tələb edilir. Göründüyü kimi, pul vəsaitlərin hərəkəti istiqamətində Rusiya Azərbaycana nisbətən daha liberal mexanizmlərə malikdir. Belə olan halda Rusiyanın geriyə addım atması mümkündürmü?

İqtisadi və Sosial İnkişaf Mərkəzinin ekspertlərinin (bax: www.cesd.az ) araşdırmalarına görə, Rusiyanın MDB ölkələri ilə bank köçürmələrinə və eləcə də nağd pulların hərəkətinə qadağa qoyması və ya müəyyən maneələr tətbiq etməsi ciddi görünmür. Son bəyanatlar yalnız “köhnə kiçik qardaşlara” hədə gəlmək məqsədi daşıyır. Rusiya üçün riskin dairəsini təsəvvür

etmək çətin deyildir: Gürcüstanın "şıltaqlığı" başqa MDB ölkələri tərəfindən təkrarlansa bu birliyin dağılmasına və təbii ki, Rusiyanın regionda təsir imkanlarının zəifləməsinə gətirib çıxaracaq. Buna görə də, rəsmi Moskva MBD ölkələrinə "ərköyünlüyün xərclərinin" olduğunu xatırlatmağa çalışır. Bu xərc isə təbii ki, Rusiyadan həmin dövlətlərə ünvanlanan pul vəsaitləridir. Deməli, məsələ sadəcə Rusiyanın liberallaşma istiqamətində islahatlar aparması ilə bağlı deyil, problem ondadır ki, Moskva tezliklə Dünya Ticarət Təşkilatına daxil olmaq niyyətindədir və əslində son illərin liberal davranışları da bu istiqamətdə aparılan fəaliyyət ilə bağlıdır.

Rusiya artıq 2001-ci ildən başlayaraq DTT-nin Xidmətlərin Ticarəti Üzrə Baş Anlaşmanın (GATS) müddəalarının qəbul edilməsi istiqamətində işlər aparır. Buna görə də, Rusiyada yaradılan DTT üzrə işçi qrupu və eləcədə bu ölkənin Cenevrədəki daimi nümayəndəliyinin ekspertləri təşkilatın 19-cu maddəsinin şərtlərinin Moskva tərəfindən qəbul edilməsi barədə bəyanatlar veriblər. Bu maddə, ölkənin xidmətlər sektorunda proqressiv liberallaşma aparmasını nəzərdə tutur. Xidmətlər sektoru isə maliyyə, sığorta və s. sektorları əhatə edir. Bundan başqa, Rusiya DTT-nin 2005-ci ilin dekabrında Honq-Konqda keçirilən Nazirlər Konfransında rəsmi olaraq TS/L mexanizminin (pul vəsaitlərin maneəsiz hərəkətinə şərait yaradılması) qəbul etdiyini bildirdi. Faktiki olaraq, Rusiya DTT-nin maliyyə liberallaşması istiqamətində olan öhdəliklərinin əksəriyyətini, xüsusən də vəsaitlərinin hərəkəti ilə bağlı şərtlərini qəbul edib. Buna görə də, son illər Rusiyada maliyyə sektorunda aparılan islahatlarda DTT-nin "əli" görünür. Və Rusiya bu təşkilata daha tez üzv olmağa can atmaqla "həmin əlin" ölkə iqtisadiyyatına daha çox nüfuz etməsinə imkan yaradır. Qeyd edək ki, Rusiya 2006-cı ildə DTT-ə üzv olmağa çalışırdı, amma ABŞ ilə tariflər ilə bağlı bir sıra məsələlərdə razılığa gəlmədiyində proses uzandı və Şimal qonşumuzun hədəfi gələn ildir. Bununla belə, bu il Sankt-Peterburqda keçirilən böyük səkkizliyim görüşündə Rusiya prezidenti Vladimir Putin Birləşmiş Ştatlar ilə bəzi məsələlərdə fikir ayrılığının olmasına baxmayaraq ticarətin liberallaşdırılması istiqamətində işlərin davam etdiriləcəyini və ölkəsinin yaxınlarda DTT-ə üzv olacağına inandığını bildirdi.

Başqa tərəfdən, Rusiya 2002-ci ildən başlayaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) maliyyə islahatları bağlı prinsiplərini tətbiq etməkdədir. Bu prinsiplər isə birbaşa maliyyə sektorunda liberallaşmanın və şəffaflığın gücləndirilməsinə xidmət edir. OECD Doha Raundunun prinsiplərini önə çəkdiyindən Rusiyanın üzünün maliyyə liberallaşmaya doğru olduğunu görmək çətin deyil.

Deməli, Rusiyanın götürdüyü öhdəliklər və eləcə də onun DTT üzvlüyü istiqamətindəki fəaliyyəti MDB ölkələri ilə bank köçürmələrinin çətinləşdirməsinə imkan vermir. Başqa tərəfdən, DTT-nin MFN (Ən Əlverişli Rejim) prinsipi maliyyə köçürmələrində diskriminasiyanın tətbiqini qadağan edir. Bu isə o deməkdir ki, DTT üzvü və Rusiyanın misalında həmin təşkilatın qapıları astasında olan ölkə heç bir halda xarici ticarətdə ölkələr üzrə fərqli şərtlər tətbiq edə bilməz. Yəni Rusiyanın bank köçürmələrində MDB ölkələrinə daha ağır, avropalılara isə yüngül şərtlər tətbiq etməsi mümkün deyil.

Rəsmi Moskvanın son bəyanatları MDB ölkələrinə mənfi təsirləri Rusiyadan kənara çıxarılan qeyri-leqal pul aparılmasının qarşısının alınmasında və bank köçürmələrində bürokratik maneələrin artmasında özünü göstərə bilər. Onsuzda artıq Rusiyada qeyri-qanuni immiqrasiyaya qarşı mübarizə tədbirləri güclənib və Tiflis aeroportu hər gün Moskvadan yola salınan "qonaqları" qarşılamaqla məşğuldur. Problem ondadır ki, Rusiyadan birlik ölkələrinə istiqamətlənən vəsaitlərin həcmində qeyri-leqal transferlər xüsusi yer tutur. Ekspert araşdırmalarına görə, 2005-ci ildə qeyr-leqal transferlərin həcmində azalma müşahidə edilsə də hələ bütün pul daşımalarının 30 faizi onun payına düşür. Hesablamalara görə, Rusiyadan MDB ölkələrinə qeyri-leqal aparılan pul vəsaitlərinin qarşısı alınsa bu həmin ölkələrin 5 milyard dollardan olması deməkdir.

Hər halda, son bəyanatla həmçinin Rusiyanın MDB-ni saxlamaq üçün rıçaqlarının getdikcə tükəndiyindən xəbər verir. Beynəlxalq iqtisadi institutlara inteqrasiya olunan Rusiya "əsası olmayan hədələrdən" də istifadə etmək məcburiyyətində qalıb. Bu bir sıra dairələrdə MDB-nin

yalnız siyasi deyil, həmçinin çevik iqtisadi quruma çevrilməsi ilə bağlı yaranan optimizmin sonu deyilmi?